# Könül mülkünün sultanı Məhəmməd Füzuli – 530



**Söz mənadan asılıdır, məna sözdən hər zaman,**
**Bir - birindən asılıdır, necə ki cism ilə can.**

*(Daycest)*

**Bakı – 2024**

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair və mütəfəkkir Məhəmməd Füzuli 1494-cü ildə İraqın Kərbala şəhərində anadan olmuşdur. Görkəmli şair ilk təhsilini Kərbəla şəhərində almışdır. Şair öz şəxsi mütaliəsi sayəsində ədəbiyyat, riyaziyyat, astronomiya elmlərinə dərindən yiyələnmiş, klassik türk, ərəb və fars dillərini öyrənmişdir. Dövrün elmlərini öyrənməkdə yüksək mərtəbəyə çatan şair bu fəzilətinə görə “Mövlana” ləqəbini almışdır. O, yaradıcılığa erkən yaşlarından başlamış, Füzuli təxəllüsü ilə çoxsaylı əsərlər yazmışdır.

M.Füzuli bədii nəsr ustadı olmuş, əsərlərini üç dildə - azərbaycan, ərəb və fars dillərində qələmə almışdır. Onun “Bəngü-Badə”, “Həfti-cam”, “Söhbətül-əsmar”, “Leyli və Məcnun”, “Şikayətnamə”, “Rindü-zahid” “Mətləül-etiqat” kimi irihəcmli əsərləri Şərq və dünya poeziyasının nadir incilərindəndir.

Hərtərəfli biliyə malik olan şair qəzəl, qəsidə, qitə, məsnəvi, müxəmməs, mürəbbe, təxmis, tərcibənd kimi əruz vəzninə mənsub janr formalarında qələmini sınamışdır. O, Şərq poeziyasında qəlb şairi, məhəbbət şairi kimi tanınmışdır. Lirik şeirinin bənzərsiz nümunələrini yaradan şair daha çox qəzəl ustadı kimi tanınır. Qəzəlləri məzmun etibarilə eşq, məhəbbət, gözəl və gözəlliyin vəsfi, dini və ictimai mövzudadır.

Füzulinin poeziyası azərbaycan dilinin ikişafında mühüm rol oynamışdır. Qüdrətli sənətkar anadilli poeziyamızın ən mükəmməl nümunələrini yatamış və Azərbaycan ədəbi-bədii dilini daha da inkişaf etdirərək yeni zirvəyə ucaltmışdır. Şairin yazmış olduğu bir çox əsərləri ilk vaxtlardan geniş coğrafiyada yayılmış və ona şöhrət qazandırmışdır.

Dahi mütəfəkkirin “Leyli və Məcnun” poeması onun yaradıcılığının zirvəsi kimi qiymətləndirilir. Onun azərbaycan türkcəsində qələmə aldığı bu əsər orjinallığı ilə həmin mövzuda yazılmış əvvəlki poemalardan fərqlənir. Poema Osmanlı hökmdarı Sultan Süleyman Qanuniyə ithaf olunmuşdur. Klassik məsnəvi janrında olan bu əsər dünya poeziyasında məhəbbət mövzusunda qələmə alınmış ən yaxşı nümunələrdəndir.

Füzuli irsi bu gün də bir çox yerli və xarici tədqiqatçılar tərəfindən də təbliğ olunur. Onun parlaq yaradıcılığına qərb mədəniyyətində də önəm verilir və bir çox əsərləri Şekspir, Dostoyevski, Con Don kimi dünya ədəbiyyatının aparıcı simalarının əsərləri ilə müqayisə edilir.

Füzulinin şöhrəti bütövlükdə Azərbaycanın şöhrəti idi. Onun zəngin irsinin öyrənilməsi, təbliğ olunması Füzuli yaradıcılığının təkrarolunmaz və örnək olmasının göstəricisidir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Məhəmməd Füzulinin 530 illik yubileyi münasibətilə şair haqqında fondda mövcud olan çap əsərlərinin tam mətnli biblioqrafik siyahısını, şairin qiymətli kəlamları, eləcə də şair haqqında söylənilən qiymətli fikirlərin mətnini toplayaraq oxuculara təqdim edir.

## Məhəmməd Füzulinin qiymətli kəlamları

- “Açılmamış dəfinədir hər bir canın xəzinəsi,
  İnci saçan dilindədir, hər insanın xəzinəsi”.

- “Aləm sədəfində insandan qiymətli bir gövhər görmədim”.

- “Comərdliyə güvənsən də, sadiq sanma sirdaşları,
  Paxıllıqdan gör nə etdi, gör Yusifin qardaşları”.

- “Elmsiz şeir təməli olmayan divara bənzər və təməli olmayan divar da tez yıxılar”.

- “Eşq aşiqlər üçün həqiqət yolunu işıqlandırır”.

- “Dil gülünc etməsin deyə insanı,
  İnsan ağzı oımuş dilin zindanı”.

- “Dünya hər kəsin öz malını satdığı bir bazardır”.

- “Hər cins öz həmcinsinə meyl edər”.

- “Hər danışan adam öz nitqinə məsuliyyətlə yanaşmalı, mənalı sözlər seçib işlətməlidir.Çünki gözəl və mənalı söz insanın mənəvi aləminin zənginliyini, onun mərifətini göstərir”.

- “Qənaət sahibi olmayan acgözlər bir tikə çörək üçün dövlətlilərin qapılarındakı köpəklərlə boğuşmalıdır”.

- “Nə qədər ki, meyvə yetişməmişdi, tamsız idi... elə ki, kamil oldu, ağacla müxalifətə başladı. Bu müxalifət ondakı rəng və qoxu idi. Meyvədəki rəng və

qoxu ağacda yox idi. Əlbəttə ki, meyvənin lətafəti və gözəlliyi ağacdan artıqdır, o, ağacdan incədir... Ey ağıllı və nüktəbin oğul! İndi sən bu sözlərdən məqsədimi başa düş. Həqiqət aləminə yaxşı baxsan meyvə sənsən, ağac mənəm, dünya bağdır".

- "Sözün qiymətini bilən, ona dəyər verən insan özünə dəyər vermiş olur. Söz hansı dəyərdə olsa, sahibini də o dəyərdə edər. İnsana onun danışdığı sözə görə qiymət verilir".



## Görkəmli şəxsiyyətlər Füzuli haqqında

Azərbaycan xalqının həyatı böyük, çətin mərhələlərdən keçmişdir. Ancaq bütün çətinlikləri keçməkdə Azərbaycan xalqına onun böyük insanlarının, böyük şəxsiyyətlərinin yaratdıqları sənət əsərləri kömək etmişdir. Füzuli bunların arasında görkəmli yer tutur.

***

Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından ibarətdir.

***

Azərbaycan yazıçıları, şairləri, bəstəkarları, rəssamları, heykəltaraşları Füzulinin əsərlərinə həsr olunmuş, onun əsərlərindən irəli gələn ideyalardan istifadə edərək gözəl əsərlər yaratmışlar. Bütün bunlar Füzulinin yaradıcılığının və onun sonrakı nəsillərə qoyduğu irsin məzmunu və mənasıdır.

***

Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq, eyni zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk, İslam dünyasına mənsubdur. Onun irsi dünya mədəniyyətinə böyük töhfələr vermişdir, dünya mədəniyyətini zənginləşdirmişdir... O, Azərbaycan şeirinin, Şərq şeirinin ən yüksək zirvəsinə çatmışdır və onun poeziyası 500 ildir insanlara böyük mənəvi ruh verir... Məhəmməd Füzuli öz əsərləri, yaradıcılığı ilə özünə yenilməz bir heykəl, abidə yaratmışdır. Bu, mənəvi abidədir...

***Heydər Əliyev***

*Ümummilli lider*

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdəndir.

***İlham Əliyev***

*Azərbaycan Respublikasının Prezidenti*

Yalnız Azərbaycanın deyil, bütün türklüyün dahi şairlərindən, Əbü şüəra künyəsini daşıyan Füzulinin dərin bir nüfuzu, böyük bir mürşüdlüyü vardır. Füzuli Şərqin ən böyük liriki, Türk ədəbiyyatının parlaq günəşidir.

***Məhəmməd Əmin Rəsulzadə***

*siyasi xadim, yazıçı*

Füzuli Azərbaycan ədəbiyyatını fars və ərəb girdablarından dartıb çıxartmış və dörd yanını sarmış boşluq içərisində yeni doğulmuş ədəbiyyatı çiyinlərinə almış və yenilməz addımlarla ta yüksəklərə qaldırıb parlaq bir sentimentalizm ədəbiyyatı olmaq üzrə vaxtına təqdim etmişdir. Füzuli öz dühası ilə Azərbaycana parlaq klassik bir ədəbiyyat verdi.

***Mirzə Fətəli Axundov***
*yazıçı, dramaturq*

Məhəmməd Füzuli novator şairdir, çünki o özündən əvvəlki şairlərdən və öz dövrünün şairlərindən heç kimi təqlid etməyib. Əksinə, M. Füzulidən sonra gələn şairlərin çoxusu, ələlxüsus Azərbaycan şairləri Füzuliyə peyrövlik edib və Füzulinin nüfuzu xeyli müddət bizim Azərbaycan şairlərinin asari qələmiyyələrində müşahidə olunacaqdır. Türk dilinə rövnəq verən və onu xaru-xaşakdan təmizləyib bir göyçək və səfalü çəmənə bənzədən Füzuli olubdur.

***Firidun bəy Köçərli***

*Azərbaycan ədəbiyyat tarixçiliyi elminin banisi*

Füzuli diridir, Füzuli şeir dövrünün hazırladığı yeniliyə məğlub olmaz və sarsılmaz bir qüvvədir. Onun məktəbi - ədəbi irsi bizim şairlərin başına girib, bütün əsərlərində bir Füzuli ruhu görünməkdədir.

***Cəlil Məmmədquluzadə***

*yazıçı, dramaturq*

O zülmət səltənətində, yalnız qüvvətin hakim olduğu yerdə, nə söz, nə əql, nə də zəka və istedadın heç bir qiymət və əhəmiyyəti olmadığını bildiyi halda Füzuli susmadı.

Duyduğunu, gördüyünü söylədi. Qaba və cahil cəmiyyəti incə-incə iylədi. Çirkinliklərini, qabalıqlarını üzlərinə oxudu.

***Abdulla Şaiq***

*şair, pedaqoq*

Füzuli böyük dahidirki, aşıb-daşıb gələn sellərin önünü aldı, ruhumuzu oxşadı, qonşulara tanıtdırdı, qabiliyyətimizi göstərdi, ədəbiyyatımızı diriltdi.

***Salman Mümtaz***

*ədəbiyyatşünas*

Füzuli bütün Şərq ədəbiyyatında, bütün Şərq ölkələrində məlum olduğu, təqdir edildiyi kimi, Avropada da rəğbət və məhəbbətlə  məzhər olmuşdur.

**Bəkir Çobanzadə**

*filologiya elmləri doktoru, professor*

Füzuli öz dünyası ilə Azərbaycana parlaq klassik ədəbiyyat verdi.

**Cəfər Cabbarlı**

*yazıçı, dramaturq*

Füzuli heç şübhəsiz ki, işıqlı və humanist fikirlərin qüdrəti, insani ehtirasların gücü, elm və biliyin müxtəlif sahələrini dərindən bilməsi etibarilə, doğrudan da nəhəng sima idi.

**Mirzə İbrahimov**

*yazıçı, dramaturq*

Azərbaycan ədəbiyyatında insan qəlbinin dərin hisslərini tərənnüm edən Füzuli poeziyamızın tarixində lirik şeirimizin mahir ustası adlanır.

**Əli Fəhmi**

*mətnşünas*

Türk dünyasının sivilizasiyaya bəxş etdiyi ən böyük bədii dühalardan biri Məhəmməd Füzulidir. Azərbaycan, Şərq və dünya elmi-nəzəri fikri tarixində "könüllər fatehi", "qəlb şairi", "eşq və məhəbbət nəğməkarı" kimi etiraf olunan Füzulinin poeziyası əslində xalis elmi dəyərlərə əsaslanan intelektual poeziyadır.

**Yaşar Qarayev**

*filologiya elmləri doktoru*

**Kitabları**

Fələklər yandı ahimdən... : Seçilmiş əsərləri. - Bakı : Kitab klubu MMC, 2017. - 456 s.

Meyvələrin söhbəti : hekayə. - Bakı : Gənclik, 1995. - 10 s.

**Kiril əlifbası ilə**

Bəngü və badə . - Bakı : Azərnəşr, 1993. - 289 s.

Hədiqətüs-süəda. - Bakı : Gənclik, 1993. - 368 s.

Mətlə əl-etiqad. - Bakı : Yazıçı, 1987. - 100 s.

Şikayətnamə. - Bakı : Gənclik, 1992. - 32 s.

Leyli və Məcnun. - Bakı : Gənclik, 1993. - 232 s.

**Haqqında kitablarda**

**Əlizadə L.** Məhəmməd Füzuli : Metodik tövsiyələr və elmi tədqiqi məqalələr məcmuəsi. - Bakı : Şəms, 2007. - 92 s.

**Kiril əlifbası ilə**

**Hacıyev T.** Füzuli: Dil sənətkarlığı. - Bakı : Gənclik, 1994. - 72 s.

**Məmmədov V.** Füzulinin musiqi dünyası. - Bakı : İşıq, 1977. - 68 s.

**Vəfalı A.** Füzuli öyrədir. - Bakı : Gənclik, 1977. - 148 s.

**Vəfalı A.** Füzuli xəlqiliyi. - Bakı : Gənclik, 1995. - 220 s.

## Əsərləri dövrü mətbuatda

Bilməm neçin? : şeir // Füyuzat. - 2023. - № 69 (134). - S. 46-47.

**Füzuli M.** "Həqiqətüs-süəda"dan // Ədəbiyyat qəzeti. - 2012. - 20 yanvar. - № 2. - S. 1.

## Haqqında dövrü mətbuatda

**Abbas A**. Unutmayaq ki, Bayat dahi Füzulinin vətənidir // Azərbaycan. - 1994. - 24 mart.

**Abbaslı T**. Füzuli - Eşqi - Ali // Mədəniyyət. - 2012. - 30 may. - S. 13.

**Abbaslı T**. İstedadın dadı... : Məhəmməd Füzuli - 520 // Mədəniyyət. - 2014. - 18 iyul. - № 55. - S. 13.

**Abbasov İ**. Füzuli haqqında çox adam çox söz dedi, amma... // Xalq qəzeti. - 1996. - 30 dekabr.

**Abbasov İ., Nuriyeva T., Ələkbərli Ə**. Yubiley iştirakçılarının ürək sözləri // Xalq qəzeti. - 1996.

**Abdulla K**. Füzuli xatırlayır: "Deyildim mən sənə mail..." : birinci esse // Ədəbiyyat qəzeti. - 2019. - 14 sentyabr. - № 31. - S. 6-7.

**Abdulla K**. Füzuli xatırlayır: "Tifl həm cövlan edər, amma ağacdan atı var..." : ikinci esse // Ədəbiyyat qəzeti. - 2019. - 21 sentyabr. - № 32. - S. 6.

**Abdulla K**. Füzuli xatırlayır: Ey Füzuli : üçüncü esse // Ədəbiyyat qəzeti. - 2019. - 28 sentyabr. - № 33. - S. 6-7.

**Adilov M**. Şairin poemikası // Ədəbiyyat qəzeti. - 1991. - 15 mart.

**Adilov M**. Tikandan "Bərki – gül..." // Azərbaycan müəllimi. - 1991. - 24 may. - S. 4.

**Akimova E**. Heydər Əliyevin Füzuli mücadiləsi - "Sorun kim, bu nə sevdadır..." : "Füzuli mənim tarixim, Füzuli mənim mənliyimdir" // Yeni Azərbaycan. - 2023. - 14 aprel. - № 64. - S. 4.

**Almasov V.** Füzuli söhbətləri // Aydınlıq. – 1994. – 22 oktyabr. – S. 2, 4.

**Amin S**. Allah və insan, ata və oğul - "Rind və Zahid" // Ədəbiyyat qəzeti. - 2017. - 28 yanvar. - № 3. - S. 4.

**Aras O**. Bir keşiş tərəfindən yazılmış Füzuli kitabı // Ədəbiyyat qəzeti. - 2024. - 13 yanvar. - № 1. - S. 32.

**Azadə R**. M. Füzulinin ürfani-fəlsəfi görüşlərindən cizgilər // Elm və həyat. - № 3-4. – S. 1-3.

**Azəri L**. Füzulinin söz dühası muğamların ahəngində : dahi şairin qəzəllərindən ibarət muğam gecəsi keçirildi // Mədəniyyət. - 2016. - 18 noyabr. - № 88. - S. 5.

**Babayev Y**. Füzulinin imtahanı // Azərbaycan : jurnal. - 2019. - № 9. - S. 198-202.

**Baxşəliyeva S**. Fərhəngi- türkidə Füzuli şeiri // Ədəbiyyat qəzeti. - 1992. - 10 iyun. - № 28.

**Bayramlı Z.** Bağdaddan doğan şeir günəşi // Azərbaycan. - 2015. - 6 fevral. - S. 10.

**Bayramlı Z**. Bəşəri kədər // Ədəbiyyat qəzeti. - 1993. - 26 fevral. - № 8. - S. 3.

**Bayramlı Z**. Füzuli- böyük türkçü və Turan şairi kimi // Ədəbiyyat qəzeti. - 2023. - 9 dekabr. - № 47. - S. 2-3.

**Bayramlı Z**. M. F. Axundzadə və M. Füzuli : Mirzə Fətəli Axundzadə - 200 // Ədəbiyyat qəzeti. - 2013. - 11 yanvar. - № 1. - S. 1,3.

**Bayramova Z**. Bəşəri söz ustadı // Səs. - 2024. - 27 yanvar. - № 16. - S. 3.

**Behbudlu Ə**. Füzulidən Vəfalıdan vəfa // Ədəbiyyat qəzeti. - 2009. - 20 noyabr. - S. 3.

**Behbudlu Ə**. Füzulisevərlərə hədiyyə // Ədəbiyyat qəzeti . -2013. - 2 avqust. - S. 3.

Böyük Füzulinin yubileyi  Dağıstan torpağında qeyd edilir // Xalq qəzeti. - 1996.- 18 iyul.

**Cahangir Ə**. Füzuli ili və Teatr günü // Ədəbiyyat qəzeti. - 2024. - 8 mart. - № 9. - S. 24.

**Cəmşidov Ş**. Füzuli yaradıcılığnda vətən həsrəti və qəriblik // Mədəniyyət. - 1993. - 5 fevral. - S. 2.

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (25 yanvar 2024-cü il). // Mədəniyyət : qəzet. - 2024. - 26 yanvar. - № 7. - S. 1, 2.

Dahi Füzulinin yubileyi ədəbiyyatımızın, mədəniyyətimizin bayramıdır //  Xalq qəzeti. - 1996. - 25 iyun. - № 143. - S. 1-2.

Dahi şairin 530 illik yubileyinə töhfə // Mədəniyyət : qəzet. - 2024. - 31 yanvar. - № 8. - S. 1, 3.

**Eyvazov A**,. **Həsənov Ə**., **Abdulov A**. Redaksiyamızın poçtundan // Ədəbiyyat qəzeti. . - 1993. - 28 may. - № 21.

Əbədiyyət yolu : Məhəmməd Füzuli-515 // Ədəbiyyat qəzeti. - 2009. - 20 noyabr. - N 44. - S. 1.

**Əkbərov Z**. Füzulinin təsir dairəsi // Ədəbiyyat və incəsənət . - 1985. - 11 yanvar. - № 2.

**Əlioğlu M**. Füzuli və Üzeyir // Ədəbiyyat qəzeti. - 2008. - 24 oktyabr. - S. 5.

**Əlioğlu M**. Füzulinin eşqi // Ədəbiyyat və incəsənət. -1970. - 8 avqust. - S. 13.

**Əliyev A**. Heyrətamiz Füzuli // Azərbaycan. – 1991. – S. 169-171.

**Əliyev F**. "Pənbeyi-daği-cünun...", yoxsa? / F. Əliyev // Ədəbiyyat qəzeti. - 2019. - 25 may. - № 18. - S. 25.

**Əliyev H.** Ədəbiyyatımızın böyük dostu // Ədəbiyyat qəzeti. – 2012. – 7 oktyabr. - № 45.

**Əliyev K**. Yaxşıları xatırlayın // Azərbaycan. - 1991. - 21 may.

**Əliyev S**. Füzulinin Leylisi // Azərbaycan. - 1985. - № 12. - 171 - 176.

**Əliyev S**. Füzuliyə məhəbbətlə // Azərbaycan. - 1991. - № 4. – S. 185-188.

**Əliyev Z**. Dərd şairinin möhtəşəm abidəsi // Mədəniyyət. - 2018. - 30 mart. - № 25. - S. 12.

**Əliyev Z.** Füzuli poeziyası... Səttar dünyası // Azərbaycan. - 1995. - 30 noyabr. - S .4.

**Əlizadə L**. Dahilər divana çəkilmir // Azərbaycan. - 1997. - 27 oktyabr.

**Əlizadə L.** M. Füzulinin “Həft cam” poemasında musiqinin alleqorik təcəssümü // Ədəbiyyat və incəsənət. - 1980. - 22 fevral.

**Əlizadə L**. Məhəmməd Füzulinin gözü yolda // Respublika. - 2009.- 31 oktyabr.

**Əlizadə M**. Füzuli teatrı // Xalq qəzeti. - 1996.

**Əlizadə S**. Elm hərfdən başlanır // Ədəbiyyat qəzeti . - 1994. - 23 sentyabr. - № 38. - S. 2.

**Əlizadə S**. Klassik şeirimizin iftixarı // Xalq qəzeti. - 1994. - 8 aprel. - S. 3.

**Əsgərova F**. Füzuli irsi, Üzeyir sənəti // Mədəniyyət. - 1992. - 16 aprel.

**Feyzullayeva V**. Gizli sözə aydın baxış // Ədəbiyyat və incəsənət. - 1990. - 19 may.

**Fərzəli Ə**. Füzuli dərdi - İlahi dərd // Günay. - 1994. - 26 noyabr. - S. 5.

**Fərzəli Ə**. Qoy bu yubiley bizi qələbəyə ruhlandırsın // Azərbaycan gəncləri. - 1994. - 19 may. - S. 3.

**Fərzəli Ə**. Pənbeyi-daği çünün...  // Azərbaycan gəncləri. - 1993. - 6 noyabr.

Füzuli 500 // Avrasiya. - 1996. - 7 noyabr.

Füzuli 500 // Gənclik. – 1990. - № 11-12. – S. 39-41.

Füzuli boxçasından // Avrasiya. - 1996. - 8 noyabr. - S. 7.

Füzuli dünyası // Avrasiya. - 1996. - 8 noyabr.

**Füzuli M.** Hədiqətüs-süəda'dan // Ədəbiyyat qəzeti. – 2008. – 18 yanvar.

Füzuli poetik orbiti // Ədəbiyyat qəzeti. - 1993. - 12 fevral. - № 6 .

Füzulinin şikayətnaməsi // Ədəbiyyat qəzeti. - 1993. - 7 may.

Füzulinin yubileyi dövlət səviyyəsində qeyd olunacaq // Avrasiya. - 1996. - 25 iyul. - S. 8.

**Göyüşov N**. Füzuli yanğısı // Ədəbiyyat və incəsənət. - 1990. - 8 iyun.

**Hacıoğlu M**. Füzuli "Divanı"na şərhlər  // Mədəniyyət. - 1996. - 28 fevral.

**Hacıyev H** . Füzuli yubileyindən qiymətli yadigar // Xalq qəzeti. - 1996. - 22 avqust.

**Hacıyev T.** Elmsiz şeir əsası yox divar olur... // Ədəbiyyat qəzeti. – 1994. – 17 iyun. - № 25. – S. 1-2.

**Hacıyev T**. Füzuli nədən şikayətlənirdi // Ədəbiyyat və incəsənət. - 1984. - 22 iyun. - № 25. – S. 6-7.

**Hacıyev T**. Füzuli və Məcnun, yaxud Məcnun yoxsa Romeo və Hamlet. // Ədəbiyyat qəzeti. - 2006. - 26 may. - S. 5.

**Hacıyev T**. Yenə Füzulinin işığına yığışdıq // Mədəniyyət. - 1995. - 16 dekabr.

**Hacıyeva C**. Söhbətil - Əsmarın mükəmməl bir əlyazması tapılmışdır // 1993. - 28 may. - № 21.

**Həmayıl**. Ahımızdan keçən yollar... // Azadlıq. - 1994. - 24 sentyabr.

**Həsənquliyev M**. Füzuli yaradıcılıgında qitə formasında yazılmış şeirlərin tədrisi // Azərbaycan Müəllimi. - 2015. - 17 iyul. - № 26. - S. 5.

**Həsənova M**. M. Füzuli mövzusunda ümumiləşdirici dərsin təşkli // Azərbaycan müəllimi. - 2002. - 8-14 noyabr.

**Hüseyn F**. Məcnunlar və Leyli // Kaspi. - 2018. - 10 fevral. - № 27. - S. 20. ; 3 mart. – S. 20.

**Hüseynova A.** Füzuli və dünya ədəbiyyatı // Azərbaycan. - 1994. - 17 may.

**Xavəri S**. Zamanın poetik "stop kadr" anı // Ədəbiyyat qəzeti. - 2018. - 9 iyun. - № 23. - S. 3. ; 23 iyun. - № 24. - S.19. ; 30 iyun. - № 25. - S. 13.

**Xəlilov P**. Füzuli irsinə sevgi - vəfa // Ədəbiyyat qəzeti. - 2010. - 26 noyabr. - N 45/46. - S. 3.

**Xəlilov S**. Fəlsəfə və poeziya: Nizami, Nəsimi və Füzuli timsalında // Ədəbiyyat qəzeti. - 2021. - 31 iyul. - № 31. - S. 2-4.

**İbadov X.** Bizi heyrətləndirən sənət // Azərbaycan müəllimi. - 1997. - 8 may. - S. 4.

**İbişova R.** Füzuli poeziyası və musiqi dünyamız / Mədəniyyət. - 2009. - 5 fevral. - S. 13.

İlahi məhəbbət tərənnümçüsü Füzuli // Panorama. - 1996. - 20 avqust.

Kədərli dastan // Ədəbiyyat qəzeti. - 1994. - 19 avqust. - № 33.

**Kərimli T**. Füzuli - Azərbaycan poeziya məktəbinin yeni mərhələsi // Azərbaycan : qəzet. - 2024. - 3 mart. - № 49. - S. 11.

**Kərimli T**. Qəlb şairinin poetik möcüzəsi : Məhəmməd Füzuli - 530 // Azərbaycan : qəzet. - 2024. - 18 fevral. - № 37. - S. 11

**Kərimli T**. Poetik obrazlarda gözlənilməzlik effekti // Xalq qəzeti. - 1996. - 6 noyabr.

**Qarayev Y**. Kərbəlaya gedən cığır // Ədəbiyyat qəzeti. - 1934. - 29 aprel. - № 18.

**Qasımbəyli Y**. Füzulişünaslıq - türk dünyasını bütövləşdirən elm // Ədəbiyyat qəzeti. - 2013. - 28 iyun. - № 24. - S. 6-7.

**Qasımlı M**. Füzuli şerində oğuz elat nəfəsi // Ədəbiyyat qəzeti. - 2015. - 14 mart. - № 16/17. - S. 18-19.

**Qasımov C**. Abdulla Sur və onun "Füzuliyə bir nəzər" əsəri // Sərhəd. - 1994.

**Qoca F**. Qəm çevrəsi // Ədəbiyyat qəzeti. - 1994. - 30 sentyabr. - № 39. - S. 2.

**Quliyev N**. İngilis alimi E. Gibb Füzuli haqqında // İncəsənət. - 1993. - 16 yanvar. - S. 6.

**Quliyev T**. Füzulişünaslıq: tədqiqlər, təkliflər... // Xalq qəzeti. - 1996. - 28 iyun.

**Quliyev V**. Artıran söz qədrini sidq ilə qədrin artırar... // Panorama. - 1996. - 8 noyabr.

**Quluzadə Z**. Füzuli əsərlərinin tərcümə və nəşr problemləri // Xalq qəzeti. - 1996. - 3 aprel. - S. 4.

**Qurbanqızı Z**. Könül mülkünün sultanı Məhəmməd Füzuli // Respublika. - 2022. - 24 noyabr. - № 256. - S. 10.

**Qurbanov Ş**. Füzuli rus mənbələrində // Ədəbiyyat qəzeti. - 1994. - 10 iyun. - № 24. - S. 2.

Leyli və Məcnun rumin dilində : Buxarestdə Füzulinin əsərinin tərcümə edilmiş variantının təqdimatı keçirilib // Yeni Azərbaycan. - 2007. - 8 mart. S.12.

Məhəbbət,  xeyirxahlıq və haqq-ədalət şairinə həsr edilir // Azərbaycan. - 1994. - 19 noyabr.

Məhəmməd Füzulinin irfani şərhi kitabının təqdimatı keçirilib // Səs. - 2010. - 5 fevral.

**Məhfuz H**. **Ə**. Bağdadlı Füzuli // Ədəbiyyat qəzeti. - 1994. - 7 oktyabr. - № 40.

**Mirzəli C**. Füzulinin "usanmaz sevda" dünyası // Xalq qəzeti. - 2024. - 29 mart. - № 64. - S. 10.

**Mirzəyev A**. Ədəbiyyat institutundan görünən Füzuli // Ədəbiyyat qəzeti. -2024. - 2 mart. - № 8. - S. 19.

**Mirzəyev A**. Füzuli yaradıcılığında Yusif və Züleyxa // Ədəbiyyat qəzeti. - 1992. - 22 may. - № 21. - S. 7.

**Muxtar R**. Məhəmməd Füzuli VII yuxu // Səs. - 2016. - 30 noyabr. - № 220. - S. 12.

**Muxtaroğlu M**. Bu sevdadan usanmazmı // Gənclik.- 1989. - № 2. – S. 20.

**Musayev V**. Dahi Füzuliyə məhəbbətlə // Azərbaycan. - 1994. - 30 sentyabr.

**Mustafa N**. Füzuliyə dildən nəzər // Vətən oğacı. - 1994. - 29 noyabr.

**Mustafayi T**. Füzuli məqamı // Press-fakt qəzeti. - 1995. - 13-19 oktyabr. - № 14.

Müdriklik mücəssəməsi, bəşəri ideyalar carçısı, dahi söz ustadı // Xalq qəzeti. - 1996. -14 noyabr. - S. 5.

**Nağısoylu M**. Bu mövzuda əsər ortaya qoymaq Füzulinin özünün ürəyincə idi. - Kaspi. - 2019. - 13 iyul. - № 125. - S. 12-13.

**Nağısoylu M**. Füzulinin türkcə divanındakı bir söz haqqında // Ədəbiyyat qəzeti. - 2019. - 26 yanvar. - № 3. - S. 21.

**Nağısoylu M**. Füzulinin türkcə divanındakı bir şeir haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 28 oktyabr. - № 38. - S. 9.

**Nəcəfxanlı Əli**. Hər sözüm bir pəhləvandır : Füzuli - 530 // Xalq qəzeti. - 2024. - 20 fevral. - № 38. - S. 14.

**Nəcəfzadə Ə**. Füzulinin "Əql yar olsaydı" qəzəlinə dair bəzi qeydlər : Məhəmməd Füzuli qəzəllərindən təhlillər // Təhsil problemləri. - 2009. - 11-20 oktyabr. - N 57-58.

**Osmanlı V**. Füzuli türk dilində yazıb // Azərbaycan. - 1994. - 19 may.

**Osmanoğlu M**. Ədəbiyyatımızda Füzuli məsələsi // Ədəbiyyat qəzeti. - 2019. - 14 dekabr. - № 47/48/49. - S. 26. ; 21 dekabr. - № 50/51/52. - S. 25.

**Ömərov V**. Məhəmməd Füzulinin sosial-siyasi ideyaları və insan haqları // Səs. - 2016. - 2 iyul. - № 118. - S. 15.

**Ömərov V**. Məhəmməd Füzuli yaradıcılığında insan hüquqlarının müdafiəsi məsələləri // Səs. - 2016. - 5 iyul. - № 119. - S. 15.

**Polad C**. Füzuliyə Vəfalıdan vəfa : Ayaz Vəfalının "Füzuli xəlqiliyi" kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2009. - 20 noyabr. - № 44. - S. 3.

**Rahim M**. Füzulini düşünərkən // Ədəbiyyat və incəsənət. - 1968. - 13 aprel.

**Rəsulzadə M. Ə**. İki "Leyli və Məcnun" // Ədəbiyyat qəzeti. - 2013. - 6 dekabr. -№ 45. - S. 1, 3.

**Rüstəmova A**. Füzuli haqqında tədqiqat // Ədəbiyyat və incəsənət. - 1986. - 1 may.

**Rzaoğlu A**. Bu ehtiram üçün çox minnətdaram // Ədəbiyyat. - 1994. - 7 oktyabr. - № 40. S. 2.

**Saatçı S**. Füzulinin qəbirüstü abidəsi // Ədəbiyyat qəzeti. - 2018. - 24 noyabr. - № 44. - S. 5.

**Sadıqzadə F**. İstedad və zəhmət // Ədəbiyyat və incəsənət. - 1987. - 5 iyun.

**Salamoğlu T**. Bir daha Mirzə Fətəli Axundzadənin Füzuliyə münasibəti haqqında : Mirzə Fətəli Axundzadə - 200 // Ədəbiyyat qəzeti. - 2012. - 28 dekabr. - № 48/52. - S. 5.

**Saləddin Ə**. Əbədi heykəllər // Azərbaycan. - 1994. - 6 may. - S. 4.

**Sarıhüseynoğlu V. N**. Füzuli poetikasına üç başvuru və ya Füzuli kantatası : Kamal Abdulla - 70 // Ədəbiyyat qəzeti. - 2020. - 22 fevral. - № 7. - S. 12-13.

**Səfərli Ə**. Azərbaycan Füzulişünaslığı: yeni mərhələnin başlanğıcı // Ədəbiyyat. - 2012. - 13 aprel. - № 9. - S. 3.

Şairin kədəri // Azərbaycan. - 1986. - № 8. - S. 27 - 46.

**Şəmsizadə N**. Söz və yaddaş // Ədəbiyyat qəzeti. - 2023. - 18 fevral. - № 7. - S. 15.

**Şirinov A**. Füzulinin fəlsəfi düşüncələr laboratoriyasında // Xalq qəzeti. - 1996. -31 yanvar. - S. 4.

**Şirinov M. C**. Füzuli yadigarı // Azərbaycan. - 1967. - № 4. - S. 172 - 182.

**Talıbzadə A**. "Bəngü-Badə" nin dumanı və həqiqətləri // Ədəbiyyat qəzeti. - 2018. - 27 oktyabr. - № 40. - S. 7.

**Təhmirazqızı S**. 103 yaşlı "Leyli və Məcnun" : Füzuli sözü və Üzeyir musiqisinin yaratdığı möhtəşəm sənət barigahı // Mədəniyyət. - 2011. - 12 yanvar. - № 2. - S. 7.

**Vahid M**. Seyid Əzim və Füzuli: ənənə və davamçılıq məsələlərinə ədəbiyyatşünaslığımızın münasibəti // Ədəbiyyat qəzeti. - 2020. - 11 iyul. - № 22/23. - S. 24-25.

**Verdiyev İ**. Məhəmməd Əmin Rəsulzadənin nəzərindəki Füzuli irsi // 525-ci qəzet. - 2024. - 15 fevral. - № 29. - S. 10.

**Vəfalı A**. Füzuliyə qibtə // Ədəbiyyat qəzeti . - 1994. - 1 aprel.

**Vəfalı A**. Qüdrətli qələm - qüdrətli ruh : "Azərbaycan Füzulişünaslığının qaynaqları" adlı 3 cildlik toplum haqqında // Ədəbiyyat qəzeti. - 2012. - 2 mart. - № 8. - S. 1, 3.

**Vəliyev İ**. Kamil insan // Xalq qəzeti. - 1996. - 8 noyabr.

**Vəliyeva K**. Məhəmməd Füzuli obrazı Azərbaycan təsviri sənətində // Mədəniyyət : qəzet. - 2024. - 21 fevral. - № 14. - S. 7.

**Yusifli C**. Samət Əlizadə - Füzuli sözünün xiridarı // Ədəbiyyat qəzeti. - 2018. - 31 mart. - № 11. - S. 21.

**Yusifli V**. Füzuli ədəbi estetikası // Ədəbiyyat qəzeti. - 2016. - 3 sentyabr. - S. 24-25.

**Yusifli V**. Bütün türk şairlərimizin babası // Panorama. - 1996. - 7 noyabr. - S. 4.

**Yusifli V**. Ey cəfalı dünya // Panorama. - 1996. - 6 noyabr.

**Yusifli V**. Füzuli möcüzəsi // Panorama. - 1996 . - 9 noyabr. - S. 4.

**Yusifli V**. Şair Füzuli - alim Füzuli : tənqid tariximizdən // Ədəbiyyat qəzeti. - 2016. - 30 aprel. - № 16. - S. 26-27.

**Zaloğlu Ə**. Füzuli kədəri ürəkləri işıqlandırır // Açıksöz. - 1992. - 10 yanvar. - S. 5.

**© F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

**Tərtib etdi:** **Əliyeva Lamiyə**